

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (23.456)

4 mart 2020-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Avropa Yenidənqurma və İnkişaf Bankının birinci vitse-prezidenti Yurgen Riqterinkin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Rusiya Federasiyasının Rostov vilayətinin qubernatoru Vasili Qolubevin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Goranboy rayonuna səfərə gəlib. Səfər çərçivəsində Qızılhacılı-Goranboy-Goran-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolunun yenidənqurmadan və bərpadan sonra açılışında iştirak edib.

Dövlətimizin başçısı həmin gün Goranboy Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak edib və "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Goranboy filialının fəaliyyəti ilə tanış olub.

* * *

Prezident İlham Əliyev martın 3-də Şəmkir rayonuna səfərə gəlib, Şəmkir-Abbaslı-Nərimanlı avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. Həmin gün "Şəmkirçay" Sutəmizləyici Qurğular Kompleksi istifadəyə verilib.



## Naxçıvan sənayesi yeni mərhələdə

*Sənaye müasir iqtisadiyyatın əsas özəyini təşkil edir. İstehsala əsaslanan bu sahənin inkişafına nail olmadan iqtisadiyyatda hər hansı bir uğurdan bəhs etmək mümkün deyil. Cəmiyyətin istehsal gücünün artmasına böyük təsir göstərən sənayenin vəzifəsi mövcud xammalı istehlakçıya istifadəyə hazır vəziyyətdə təqdim etməyə əsaslanır. Bu isə məişətimizdə gündəlik istifadə etdiyimiz maddi və qeyri-maddi məhsulların həyatımızda necə mühüm bir yerə malik olmasını təsdiq edir.*

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən çoxşaxəli iqtisadi inkişaf strategiyasının əsas məqsədlərindən biri də sənaye məhsulları istehsalı ilə davamlı inkişafa, o cümlədən yerli istehsal və əmək potensialından səmərəli istifadə etməklə ixracyönlü hazır məhsul istehsalına nail olmaqdan ibarətdir. Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir. Regional inkişafa göstərilən bu diqqət ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında sənayenin inkişafına şərait yaradıb. Nəticədə, muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişaf etdirilməsinə yönəlmiş kompleks tədbirlər bu sahədə müsbət nəticələrin əldə edilməsinə səbəb olub.



Qeyd edək ki, son illər Naxçıvanda yüksək texnologiyalar əsasında maşınqayırma, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayeləri üzrə çoxsaylı istehsal sahələri yaradılıb, nəticədə, 383 növdə məhsulun istehsal olunduğu məkanda 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Ötən il muxtar respublikada ümumi daxili məhsulun həcmi 2 milyard 839 milyon manatdan çox olub ki, burada da ilk yeri 27,6 faizlə sənaye tutmaqdadır. Ötən il sənaye məhsulunun həcmi artaraq 1 milyard 15 milyon manata yaxın olub. 2018-ci illə müqayisədə 2019-cu ildə sənaye məhsulu 1,4 faiz artıb.

Sənaye istehsalında mühüm nəticələrin əldə olunmasında dövlətin sahibkarlığa, xüsusilə istehsalyönlü məhsul istehsalçılarına göstərdiyi dəstək diqqətçəkicidir. Məsələn, 2019-cu ildə muxtar respublikada dövlət dəstəyi ilə iqtisadi fəaliyyətin müxtəlif sahələrində 84 layihə üzrə istehsal və xidmət obyektləri yaradılıb, 63 layihə üzrə istehsal və xidmət obyektlərinin yaradılması davam etdirilib.

Sənayenin inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 2019-cu ildə 10 milyon 944 min 900 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 2,1 dəfə çoxdur. Ötən il muxtar respublikada sənayenin inkişafı məqsədilə atılan mühüm addımlardan biri də muxtar respublikanın ən böyük rayonlarından biri olan Şərur rayonunda Şərur Sənaye Məhəlləsinin yaradılmasıdır. Ölkə Prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanına əsasən belə bir sənaye məhəlləsinin yaradılması və bu məqsədlə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinə ilkin olaraq 5 milyon manat vəsaitin ayrılması sənayenin inkişafına yeni imkanlar açacaqdır.

Məlum olduğu kimi, sənaye məhəllələri bu gün dünya praktikasında uğurla tətbiq olunan layihələrdəndir. Hər şeydən əvvəl, belə məhəllələrin yaradıldığı ərazilər mövcud olduğu regionlara xas müxtəlif növ məhsulların istehsalını həyata keçirmək üçün zəruri olan infrastruktur şəraiti ilə təmin edilir. Məhəlləvi olaraq çəkilən infrastruktur xərcləri digər kiçik və orta sahibkarlar tərəfindən sərf olunacaq xərclərdən daha aşağı maliyyə vəsaitinə başa gəlir. Eyni zamanda burada ümumi fəaliyyət kompleks xarakter daşıdığından, istifadə olunacaq su, qaz, enerji, nəqliyyat və digər xidmətlərdən istifadə ekoloji tarazlığın qorunmasına da öz töhfəsini verir.

Qeyd edək ki, hazırda muxtar respublikada sənayenin inkişafı üçün böyük perspektivlər mövcuddur. Son illər həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, nəticədə, muxtar diyarımızda rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmışdır. Bunun nəticəsində keçən il ilk dəfə olaraq sənaye məhsullarının istehsal həcmi 1 milyard manatı ötərək yuxarıda da qeyd etdiyimiz kimi, 1 milyard 15 milyon manata yaxınlaşmışdır.

Sənaye məhsulu istehsalının 95,9 faizi malların, 4,1 faizi isə xidmətlərin payına düşmüşdür. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı isə 94,1 faiz təşkil etmişdir ki, bu da ölkəmizin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir. Yeri gəlmişkən bunu da əlavə edək ki, ötən il sənayedə istehsalın həcminin artması nəticəsində 323 milyon 309 min ABŞ dolları dəyərində sənaye məhsulları ixrac olunmuşdur. Ümumilikdə, hazırda muxtar respublikada istehsal olunan yeyinti, tikinti, mebel və yüngül sənaye məhsulları 12 ölkəyə ixrac edilir. 2020-ci ilin muxtar respublikamızda "İxrac ili" elan olunması isə sənaye məhsulları istehsalçıları qarşısında daha geniş imkanlar açır.

2020-ci il fevralın 24-də keçirilən altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Ali Məclisin Sədri demişdir: ***"2020-ci ilin muxtar respublikada "İxrac ili" elan edilməsi qarşıya mühüm vəzifələr qoyur. Ona görə də iqtisadi inkişafın prioritet istiqaməti kimi muxtar respublikanın xarici ölkələrlə qarşılıqlı ticarət əlaqələri daha da genişləndirilməli, xüsusilə də idxalın həcminin azaldılması və ixrac potensialının gücləndirilməsi istiqamətində əsaslı işlər görülməlidir. Mövcud istehsal sahələrinin genişləndirilməsi və ixracyönümlü istehsal müəssisələrinin yaradılması davam etdirilməli, süni qiymət artımının qarşısı alınmalıdır".***

Ümid edirik ki, bu istiqamətdə görülən işlər sənayenin də inkişafına öz təsirini göstərəcək, muxtar respublikamızın istehsalçı imicinin formalaşmasına töhfəsini verəcək.

✍ **Səbuhi HƏSƏNOV**

## Turizm sahəsinə diqqət davamlı xarakter almışdır

*Əsası ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq muxtar respublikada həyata keçirilən mühüm tədbirlər nəticəsində əldə olunmuş davamlı inkişaf, aparılan genişmiqyaslı quruculuq işləri qədim diyarın simasını dəyişmiş, turizmin inkişafına yeni imkanlar yaratmışdır.*





Turizm iqtisadi fəaliyyətin mühüm gəlirgətirən sahələrindən biri olub səmərəli məşğulluğun təmin edilməsində mühüm rol oynayır.

Muxtar respublikanın coğrafi mövqeyi, özünəməxsus iqlimi, fauna və florası, qədim tarixə malik mədəniyyət abidələri olan Möminə xatın, Qarabağlar və Gülüstan türbələri, Əlincəqala abidəsi, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksi, mühüm müalicə yerləri – Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası turizmin inkişafına şərait yaratmışdır.

Naxçıvan Turizm İnformasiya Mərkəzinin yaradılması, Naxçıvan Dövlət və "Naxçıvan" universitetlərində turizm və otelçilik ixtisaslarının açılması, İran İslam Respublikası və Türkiyə Respublikası ilə sərhəd keçid rejiminin sadələşdirilməsi, beynəlxalq marşrutların təşkili turizmin inkişafını sürətləndirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı"nın, "Ağbulaq Kənd Turizm İstirahət Bölgəsinin yaradılması haqqında" 2018-ci il 29 noyabr tarixli Sərəncamının icrası və bu sahədə dövlət idarəçiliyinin təkmilləşdirilməsi görülən işlərin davamlılığını təmin etmişdir.

2019-cu ildə xarici ölkələrdə təşkil olunmuş turizm sərgilərində muxtar respublikanın turizm potensialı geniş şəkildə təbliğ olunmuş, Naxçıvan Muxtar Respublikasına 15 gün müddətinə səfər edən İran İslam Respublikası vətəndaşları üçün viza rejimi ləğv edilmişdir.

Naxçıvan şəhərində "Saat Meydanı" turistik istirahət mərkəzi, Turizm Departamenti üçün inzibati bina istifadəyə verilmişdir. Böyük Britaniyada nəşr olunan dünyanın ən məşhur səyahət jurnalı "Vanderlast" Naxçıvan şəhərini səyahət edilən 50 ən təhlükəsiz və gözəl şəhərlər sırasına daxil etmişdir.

Turizmin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin və muxtar respublikanın təhlükəsiz region kimi tanınmasının nəticəsidir ki, 2019-cu ildə muxtar respublikamıza ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 415,9 min turist gəlmişdir. Bu da 2009-cu illə müqayisədə 84,1 faiz çoxdur.

Muxtar respublikada turizmin əhəmiyyətini və bu sahədə görülən işləri yüksək qiymətləndirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri demişdir: ***"Hər bir ölkənin həyatında turizm xüsusi yer tutur. Müasir dövrdə ölkələr turizmin inkişafında, daha çox turist cəlb etməklə ümumi inkişafın təmin olunmasında maraqlıdırlar. Naxçıvan Muxtar Respublikasında da turizmin inkişafı diqqət mərkəzindədir. Tarixi və dini turizmin, ekoturizmin, dağ turizminin, mədəni və sağlamlıq turizminin inkişafı sahəsində mühüm işlər görülmüşdür".***

Turizmin inkişafı cari ilin ötən dövründə də diqqətdə saxlanılmış, Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin tikintisi, Şahbuz rayonunda Ağbulaq Xizək Mərkəzinin yaradılması hazırda davam etdirilir.

Muxtar respublikada ətraf mühitin qorunması istiqamətində görülən mühüm işlər, əhalinin asudə vaxtının səmərəli təşkili məqsədilə yaradılan müasir şərait turizmin inkişafını daha da sürətləndirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Su həyatdır...

## Qapalı suvarma şəbəkələri isə ikinci həyatdır

*Suyun canlı aləmin varlığındakı rolundan günlərlə danışmaq olar. Bunu, sadəcə, iki kəlmə sözlə ümumiləşdirib deyirlər ki, su həyatdır. O olmayan yerdə həyat mövcud ola bilməz. Su tək gün ərzində ehtiyac duyulduqca stəkanı doldurub içmək deyil. Nəfəs aldığımız havada, qəbul etdiyimiz qidaların hər birinin tərkibində, bizi əhatə edən ətraf aləmin hər kiçik zərrəsində müxtəlif faizdə su vardır. Lakin, çox təəssüf ki, bu gözəl nemət dünyanın hər yerinə heç də eyni dərəcədə paylanmayıb. Yer kürəsinin 2/3-si sudan ibarət olsa da, hazırda elə dünyada böyük problemlərdən biri də su qıtlığıdır. Qlobal istiləşmə XXI əsrin insanını su sarıdan "imtahana çəkir", çətin sınaqlarla üz-üzə qoyur. Dünya ölkələrinin əksəriyyətində bir ovuc su həsrəti ilə yaşayanlar var. Onlar su əldə etmək üçün evlərindən minlərlə kilometr uzaqlaşmalı olur, iki-üç gün istifadə edəcəkləri su üçün bir həftə vaxt sərf edirlər.*



### Həyatımızda su…

Su qıtlığı ilə bağlı eşitdiklərimizə, xəbərdar olduqlarımıza əsasən deyə bilərik ki, Ulu Yaradanın muxtar respublikamıza böyük səxavətlə bəxş etdiyi saf, təmiz, bənzərsiz sular, 250-dən çox mineral və müalicəvi əhəmiyyətli su mənbələri, çaylar, göllər bizim tale payımızdır. Düzdür, dünyadakı qlobal istiləşmə ilə əlaqədar diyarımızda da 20-30 il bundan əvvəlki su bolluğu yoxdur. Bir zamanlar nənə-babalarımızın dediyi kimi, adamboyu hündürlükdə göy gurlamasına bənzər şaqqıltıyla axan, köpüyü, sanki ərşə qalxan, lal gecələrin sükutunu tarmar edən, yazda yaxın düşə bilmədiyimiz, qışda isə donub kəndlərimizin o tayı ilə bu tayı arasında bəyaz körpüyə çevrilən, uşaqlıqda kəndə qonaq gedərkən böyüklərimizdən "ondan uzaq dur!" kimi ciddi xəbərdarlıq aldığımız çaylarımızda indi sular çox zəif, ahəstə, sakit axır. Lakin yenə də, şükürlər olsun ki, su sarıdan olmazın əziyyətini çəkən insanlardan çox fərqli bir məkanda yaşayırıq. O məkan ki su qədim dövrlərdən burada dədə-baba arxları, quyular, saysız-hesabsız kəhriz, su dəyirmanları olub. Müasir dövrümüzdə isə su Naxçıvanda bərpa olunan, yenidən qurulan, tikilən, yaradılan 337 kəhriz, 102 nasos stansiyası, 820 subartezian quyusu, 31 su anbarı, 5 su dəyirmanı, 20 faizədək yaşıllıq sahəsi, evlərimizi nura qərq edən 5 su elektrik stansiyası, bir də ki, illərdən bəri su həsrətli, cadarlaşmış 5 min hektaradək torpağa ikinci həyat verən qapalı suvarma şəbəkələridir.

### Qapalı suvarma şəbəkələrinin yaradılması zərurəti

***"Qapalı suvarma şəbəkələrinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması vacib məsələdir. Çünki muxtar respublika əhalisinin sayı ilbəil artır, həyətyanı torpaq sahələrində evlər tikilir. Bu da ərzaq təhlükəsizliyinin təmin olunması üçün yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasını zəruri edir. Qapalı suvarma şəbəkəsinin əhatə etdiyi ərazi uzun müddətdir əkilməyən münbit torpaqlardır. Su təminatından sonra bu ərazilərin əkilməsi muxtar respublikada kənd təsərrüfatının inkişafına öz töhfəsini verəcəkdir. Torpağa həyat vermək, onu əkin dövriyyəsinə qaytarmaq xeyirxah işdir. Eyni zamanda bu, insanlara həyat vermək deməkdir. Çünki bol məhsul istehsalı muxtar respublika iqtisadiyyatının inkişafı ilə yanaşı, həm də əhalinin ərzaqla təminatının yaxşılaşdırılmasına xidmət edir".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qapalı suvarma şəbəkələrinin yaradılması zərurətini tam mahiyyətini açan bu dəyərli fikirlərindən sonra illər öncənin Naxçıvanına da qısa bir səyahət yerinə düşər ki, blokadanın bir qərinəlik zaman kəsiyində çox ilklərə imza atdığımız, indi böyük inkişafın sahibinə çevrildiyimiz bu gözəl diyarımızı o dövrlərlə müqayisə edə bilək. Hər kəs yaxşı xatırlayar ki, blokadanın ilk illərində yerli meyvə-tərəvəzə, kənd təsərrüfatı məhsullarına həsrət qalan bazarlarımızda, əsasən, qonşu ölkələrdən gətirilən, necə istehsal edildiyindən, hansı şəraitdə becərildiyindən xəbərsiz olduğumuz, sağlamlığımıza qənim kəsilən məhsullar yer alırdı. Həmin məhsullar muxtar respublikaya hansı məcburiyyətdən gətirilirdisə, biz də onları eyni məcburiyyətlə alıb evlərimizə aparır, istifadə edirdik. Lakin insan sağlamlığı həmişə ən vacib amil olan muxtar respublikamızda bu, həlli ən yaxın perspektivə hesablanmış məsələ idi. Elə buna görə də bir-birinin ardınca qəbul olunan əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair dövlət proqramları təhlükəsiz və keyfiyyətli ərzaqla təminata, idxaldan asılılığın aradan qaldırılmasına yönəlmiş dövlət sənədləri kimi mühüm əhəmiyyət kəsb etmişdir. Həmin dövlət proqramları kənd təsərrüfatı məhsulları istehsalının əsas istiqamətlərinin müəyyənləşdirilməsinə, sahibkarlığın inkişafına stimul olmuşdur. Daha sonra meyvəçiliyin və tərəvəzçiliyin, kartofçuluğun, taxılçılığın, arıçılığın inkişafı, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi ilə bağlı imzalanan sənədlər torpaqlardan



səmərəli istifadə olunması, investisiyaların yatırılması, müxtəlif servis mərkəzlərinin yaradılması, daxili bazarın qorunması, tələbata uyğun keyfiyyətli məhsul istehsalının dəstəklənməsi kimi zəruri tədbirlərin həyata keçirilməsini qarşıya qoymuşdur. Nəticədə isə taxıl, kartof və digər kənd təsərrüfatı məhsullarının əkin sahələri ildən-ilə genişləndirilmiş, arıçılıq inkişaf etdirilmiş, daxili bazarın məhsul təminatında idxaldan asılılıq azaldılmış, tələbat yerli istehsal hesabına ödənilmişdir. Ailə təsərrüfatlarına dəstək, onların inkişafı üçün hərtərəfli dövlət qayğısı, belə təsərrüfatların genişlənməsinə, məşğul əhalinin artmasına, üstəlik də, yeni sahibkarlıq subyektlərinin yaranmasına səbəb olmuşdur. Bu isə, öz növbəsində, təbii ki, əkinəyararlı torpaq sahələrinin genişləndirilməsini tələb edirdi. Münbit, lakin uzun illər su problemi səbəbindən əkilməyən torpaq sahələrində yeni suvarma şəbəkələrinin qurulması bu zərurətdən yarandı…

### 5 ilə 5 min hektaradək

Bəli, meliorasiya və irriqasiya tədbirlərinin davam etdirilməsi nəticəsində 2014-cü ildən muxtar respublikamızda başlanan qapalı suvarma şəbəkələrinin tətbiqi ilk olaraq Kəngərli rayonunun Böyükdüz, Xok və Kərki kəndlərində 600 hektar əkilməyən torpaq sahəsinə yeni həyat bəxş etdi. Bunun ardınca yeni sistemlə 2015-2019-cu illərdə Babək rayonunun Nehrəm, Culfa rayonunun Bənəniyar, yenə də Kəngərli rayonunun Böyükdüz, Xok və Yurdçu, Şahbuz rayonunun Türkeş kəndlərində su təminatı olmayan və uzun müddət əkilməyən torpaq sahələri əkin dövriyyəsinə qatıldı ki, bununla da diyarımızda 5 ilə, ümumilikdə, 5 min hektaradək torpağa ikinci həyat verildi.

Bu gün muxtar respublikada 160





min hektar əkinəyararlı torpaq sahəsinin 62 min hektarından istifadə olunur ki, onun da cəmi 52 min hektara yaxını suvarılan ərazilərdir. Ona görə də suvarılan torpaqların sahəsinin genişləndirilməsi, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması və ərzaq təhlükəsizliyinin təmin olunması qarşıda duran əsas vəzifələrdəndir. Ali Məclis Sədrinin də dediyi kimi, hazırda muxtar respublikada əsas ərzaq məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir. Lakin muxtar respublikanın ehtiyat taxıl fondu kənardan alınır. Mütərəqqi suvarma sistemlərinin qurulması və yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması ilə bu problem də tamamilə həll olunacaqdır. Muxtar respublikanın illik taxıla olan tələbatı 150 min tondur. Buna görə də taxıl sahələrinin genişləndirilməsinə diqqət yetirilməli, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmalı, əkilən torpaqların məhsuldarlığı artırılmalıdır.

Ölkənin sosial-iqtisadi inkişafında, xüsusilə də əhalinin məşğulluğunda meliorasiya və su təsərrüfatı sahəsinin də müstəsna rolu vardır. Elə bu səbəbdən də iqtisadiyyatının əsasını kənd təsərrüfatı təşkil edən muxtar respublikada aqrar, o cümlədən meliorasiya və su təsərrüfatı sahəsində aparılan islahatlar, genişmiqyaslı layihələrin icrası illərdən bəri bu sahənin ildən-ilə nəticələnir. Bütün bunlar isə məhsul istehsalının ildən-ilə artmasına və muxtar respublikada əsası hələ illər öncə qoyulan ərzaq təhlükəsizliyinin təmin olunmasına geniş imkan yaradır. Elə 5 min hektaradək ərazini əhatə edən qapalı suvarma şəbəkəsi üçün coğrafiyası, iqlim və əkin xüsusiyyətləri, ərazi etibarilə ilkin olaraq seçilmiş torpaqlarda bu yeni sistemin tətbiqini meliorasiya və irriqasiya sahəsində aparılan uğurlu işlərin davamı kimi dəyərləndirmək olar. Bu gün diyarımızda bol və keyfiyyətli məhsulun hasil olmasına rəvac verən su nasos stansiyalarının, anbarların, kəhrizlərin siyahısına əlavə edilən qapalı suvarma şəbəkələri layihəsi davam etdirildikcə hələ neçə hektarlarla torpaq "yeni həyata" qədəm qoyacaqdır. Ərazilərin daimi su təminatı, torpaqların münbitliyi və məhsuldarlığı burada ikinövbəli əkinlərin aparılmasına da imkan verəcəkdir.

### Mahiyyət etibarilə…

Mütərəqqi suvarma şəbəkələrinin mahiyyəti dünənlə bu gün arasına körpü salaraq çox böyük reallıqları ortaya qoyur. O reallıqlar ki onların şahidi olan bizlər üçün çox böyük əhəmiyyətə malikdir. Məsələn, bir vaxtlar torpaqlar da yerində idi, biz də burada yaşayırdıq. Lakin həmin torpaqlar bizim ola-ola, əsl reallıqda, bizim deyildi, özgənin idi. Blokadanın ilk illərinin əzablı-əziyyətli, acınacaqlı günlərində iş dalınca üz tutmuşduq qonşu ölkələrə. İllər sonra – xoş günlər acıların qalibi olduqca bizə də firavanlığı töhfə etdi. Beləliklə, aqrar islahatla torpaqlarımızın sahibi olmaqla elimizə, evimizə qayıtdıq. Bu torpaqlarda özümüzə iş yeri tapdıq. Bununla mənəvi cəhətdən sağlamlaşdıq, artıq özümüzün olan torpaq blokadadan aldığımız zərbələrin "təbibi" oldu, bizə şəfqət verdi, ruhumuz yeniləndi. Əkdik-becərdik, torpaqlarımız taxıl zəmilərinə, meyvə bağlarına, kartof, soğan, kələm sahələrinə, qarpız, pomidor, xiyar, göyərti bostanlarına çevrildi, süfrələrimizdə qıtlığı bolluq əvəzlədi. Meyvə-tərəvəz sarıdan olmazın əziyyətini çəkdiyimiz o illəri geridə qoyduq. Məhsulumuz artdı, bərəkət bağladı. Bu dəfə onu bazarlarımıza apardıq, idxal məhsulları sıxışdırıb aradan çıxardıq. Gəlirimiz artdı, evlərimizi, həyətlərimizi təmir etdik, yeni avadanlıqlar, maşın aldıq. Kəndlərimizin quruculuq ərməğanları ilə tikdiyimiz evlər həmahəng olduqca bundan mənəvi zövq aldıq, yurdumuza daha böyük istəklə bağlandıq.

Torpaq sevgisi zəhmətlə əl-ələ verib bizi ailə təsərrüfatçılarına çevirdi. Maşın-texnika, gübrə, su, subsidiya, kreditlər, ehtiyacımız olan nə varsa, onunla təmin edildik və ailəliklə işə başladıq. Bir də baxdıq ki, festival qalibi olmuşuq, məhsullarımızın sərgisi açılıb, evdə istehsal etdiyimiz məhsullar nəfis şəkildə qablaşdırılıb. Göründə ki, artıq biz sərbəst şəkildə məhsul istehsal edirik, əvvəl kiçik, sonra isə böyük sahibkarlara çevrildik. Bütün bunlara, təbii ki, ümummilli liderimiz Heydər Əliyevin, ölkə və muxtar respublika rəhbərlərinin qayğısı, vətəndaşa verilən dəyərlə, dəstəklə, gerçəkləşdirilən layihələrlə nail olduq. Bir zamanlar, yuxarıda da qeyd etdiyim kimi, bazarlarımıza idxal olunan, harada, necə, hansı su ilə becərildiyini bilmədiyimiz məhsulların yerini indi təmiz, bol oksigenli havada, saf sularla ərsəyə gələn məhsullar alıb. O məhsullar ki indi onlar həm də ixrac məhsullarına çevrilib.

Qapalı suvarma şəbəkələrinin qurulması isə muxtar respublikamızda görülən işlərin növbəti mərhələsidir. Bu mərhələ artıq əlavə torpaq sahələrinə ehtiyacı ortaya qoymuşdu. Əkin dövriyyəsinə yeni torpaq sahələri qatılmalı idi ki, əhalinin tələbatı ödənilə bilsin. Yeni suvarma şəbəkələrinin qurulmasını da məhz bu, reallaşdırdı. Ali Məclisin Sədri çıxışlarından birində deyir ki, su həyatdır, əkilə bilən torpaqdır, əkilə bilən torpaq iş yeridir, insanların məşğuliyyətidir. Məşğuliyyət yaxşı dolanışıq, firavanlıq, sağlamlıqdır, eyni zamanda bolluqdur, bazarların yerli məhsula olan tələbatının ödənilməsidir, ailə təsərrüfatlarının inkişafıdır, bu inkişaf isə, ümumilikdə, muxtar respublikanın iqtisadiyyatına töhfədir.

### Susuz həyat olmasın…

Mütəxəssislərin hesablamalarına görə, bir dəqiqə ərzində insan orqanizmində 4 milyon eritrosit (qırmızı qan kürəciyi) məhv olur, elə o qədəri də yaranır. Su nə qədər təmiz olsa, onun iştirakı ilə yaranan və yaşayan qan maddəsi daha təmiz və sağlam olar. Su özü ilə gətirdiyi "çirkab" vasitəsilə qanı korlayır – orqanizmdə mutagen dəyişikliklər yaradır və DNT-lərə (genlərə) yazılmış "genetik informasiya"nı dağıdır. Bəli, buradan da belə bir nəticəyə gəlmək olar ki, insana həyatımızda böyük rolu olan suyun bolluğundan çox, onun saflığı, təmizliyi daha vacibdir.

***Muxtar respublika sakinlərinin, hər birimizin evindən 24 saat axan su min kilometrlərlə uzaqdan – dağların zirvəsindən, bulaqların gözündən çəkilib gətirilib. Məişətdə də saf sulardan istifadə edirik, tarlalarımız, zəmilərimiz, bostanlarımız da saf sularla suvarılır. Ona görə də bu diyarın yetirdiyi, bitirdiyi hər bir nemət dad-tamı ilə fərqlənir. İnsanları sağlamdır, uzunömürlüdür. Çirkli sulardan istifadə, əkinlərin çirkab sularla suvarılması səbəbindən dünyanın bir sıra dövlətlərində infeksion xəstəliklərin yayılmasının baş alıb getməsini nəzərə alsaq, bu kiçik, lakin günəşli, aranlı-dağlı, safsulu diyarımız qədər gözəl məkan yoxdur…***

***Susuz həyat olmasın. Çünki bütün canlı aləmin ona ehtiyacı var. Su həyatdır, həyatın özüdür…***

Mətanət MƏMMƏDOVA

*Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində ölkə və beynəlxalq səviyyəli idman yarışlarında fərqlənən şagirdlərin və onların müəllimlərinin mükafatlandırılması ilə bağlı tədbir keçirilmişdir.*

## Muxtar respublika məktəbliləri ölkə və beynəlxalq səviyyəli idman yarışlarında 49 medal qazanıblar



Tədbirdə Təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində ötən müddət ərzində 200-dən çox müasirtipli, hər cür maddi-texniki bazaya malik, informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş məktəb binaları tikilmiş və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Bu məktəblərdə ən müasir tələblərə cavab verən 198 idman zalı və bütün məktəblərdə açıq idman qurğuları, şahmat sinifləri yaradılmışdır.

Qeyd olunub ki, Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Uşaq-gənclər şahmat və idman məktəblərinin də infrastrukturu yenilənmiş, onların fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Şahmatın yüksək səviyyədə tədrisini təmin etmək üçün Şahmat Federasiyası tərəfindən "Pillə-pillə" və "Debütdə buraxılmış səhvlərə aid 1000 oyun" kitabları nəşr olunaraq ümumtəhsil məktəblərinə verilmişdir. Muxtar respublikanın təhsil müəssisələrində fəaliyyət göstərən fiziki tərbiyə müəllimlərindən 14-nün əməyi yüksək qiymətləndirilmiş, onlar fəxri adlarla təltif olunmuşlar. Naxçıvan şəhər 15 nömrəli tam orta məktəbin şagirdi, dünya çempionu Rafiq Hüseynlinin adı gənc istedadların "Qızıl kitabı"na salınaraq xüsusi aylıq təqaüdə layiq görülmüşdür.

Təhsil naziri ümumtəhsil müəssisələrində yaradılan şəraitdən səmərəli istifadə olunmasının diqqətdə saxlanıldığını, şahmat müəllimlərinin sertifikasiyası istiqamətində zəruri tədbirlərin görüldüyünü bildirmişdir. Diqqətə çatdırılmışdır ki, 487 şahmat müəlliminə Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyası və Təhsil Nazirliyinin sertifikatı verilmiş, müsabiqələrdə ən yüksək nəticə göstərən 24 fiziki tərbiyə müəllimi işə götürülmüş, 68 məzun ali məktəblərin bədən tərbiyəsi və idman ixtisaslarına qəbul olmuş, fiziki tərbiyə müəllimlərinin ixtisasartırma kursları təşkil edilmişdir.

Çıxışda muxtar respublikamızda idmanın inkişafı istiqamətində yaradılan əlverişli şərait və federasiyaların fəaliyyəti nəticəsində şagirdlər tərəfindən muxtar respublika, eyni zamanda ölkə və beynəlxalq səviyyəli idman yarışlarında qazanılan yüksək nəticələrdən bəhs edilmişdir.

Təhsil naziri ölkə və beynəlxalq səviyyəli idman yarışlarında fərqlənən şagirdləri və onların məşqçilərini təbrik etmiş, muxtar respublikada idmanın və təhsilin inkişafına göstərdiyi diqqət və qayğıya görə bütün təhsil işçiləri adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri Azad Cabbarov çıxış edərək qeyd etmişdir ki, müasir idman tariximizin, uğur və nailiyyətlərimizin əsası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ölkəyə rəhbərlik etməyə başladığı dövrə təsadüf edir. Məhz ulu öndərin hakimiyyəti illərində ölkədə idman infrastrukturu yenidən qurulmuş, idmançılarımızın beynəlxalq miqyaslı idman yarışlarına hazırlığı və iştirakı təmin edilmişdir. Nəticədə, ölkədə idmanın təbliği və kütləviləşdirilməsi baxımından ciddi uğurlar əldə olunmuşdur. Hazırda Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət idman siyasəti hər il öz nəticələrini daha da yaxşılaşdırmaqla, Azərbaycan idmanına daxili inamı və beynəlxalq etimadı anbaan artırmaqdadır.

Vurğulanıb ki, muxtar respublikamızda da idman və idmançılara dövlət qayğısı ən yüksək səviyyədədir. Göstərilən qayğının və yaradılan hərtərəfli şəraitin nəticəsidir ki, ötən il 49 şagird ölkə və beynəlxalq səviyyəli idman yarışlarında qalib gəlmişdir. 2019-cu ildə muxtar respublika məktəblilərindən 21-i I, 9-u II, 19-u III yer olmaqla, 49-u ölkə və beynəlxalq səviyyəli yarışların qalibi olmuşdur.

Sonra Ordubad Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktoru Elşən Əliyev və Şərur Rayon Uşaq-Gənclər İdman Məktəbinin Ağır atletika dərnəyinin üzvü Gülcahan Əliyeva çıxış edərək qazandıqları uğurların muxtar respublikada idman sahəsində yaradılan şərait hesabına olduğunu vurğulamış, bundan sonra da mövcud şəraitdən səmərəli istifadə edərək gələcəkdə daha yüksək nəticələr qazanacaqlarını bildirmişlər.

Tədbirdə ölkə və beynəlxalq səviyyəli idman yarışlarında fərqlənən şagirdlərə və onların müəllimlərinə diplom və hədiyyələr təqdim edilmişdir.

Sonra Naxçıvan Dövlət Televiziyası tərəfindən muxtar respublikada idmanın inkişafı ilə bağlı hazırlanmış sənədli film nümayiş etdirilmiş, Naxçıvan Dövlət Uşaq Teatrının vətənpərvərlik mövzusunda hazırladığı "Unutmamalıyıq" adlı səhnəciyə baxış olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

## Maariflәndirici tәdbirlәr davam etdirilir

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şahbuz rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı tədbirlər haqqında" 2019-cu il 31 oktyabr tarixli Sərəncamından irəli gələn məsələlərin icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi tərəfindən əhalinin maarifləndirilməsi tədbirlərinə start verilib.*

Tədbirin ilk günü Şahbuz Rayon Mədəniyyət Sarayında, Mahmudoba və Qızılqışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə maarifləndirici görüş keçirilib.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşı Taleh Bağırov çıxışında bildirib ki, tədbirin keçirilməsində məqsəd Şahbuz rayonunda əhalini icbari tibbi sığortanın tətbiqi, bu sığorta növü üzrə tibbi xidmətin təşkili, xidmətlər zərfi, sığortaolunanların tibb müəssisəsində hərəkəti, müştərək maliyyələşmə məbləği, 1 aprel 2020-ci il tarixdən toplanmağa başlayacaq sığorta haqları barəsində ətraflı məlumatlandırmaqdır.

Vurğulanıb ki, icbari tibbi sığortadan istifadə edən əhalinin öz hüquq və vəzifələrini, səhhətlərində yarana biləcək problemlər zamanı nələr etməli olduqlarını, hərəkət qrafikini bilməsi vacibdir.

Sonra mövzular ətrafında slaydlar nümayiş etdirilib və tədbir iştirakçılarının sualları cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi***

## Erasmus+ proqramının PETRA layihəsi çərçivəsində Təlim-Tədris Mərkəzi istifadəyə verilib

*Naxçıvan Dövlət Universiteti tədrisin Avropa standartlarına uyğun qurulması və təkmilləşdirilməsi məqsədilə 2017-ci ildə təqdim edilmiş layihə əsasında Avropa İttifaqının Erasmus+ proqramının PETRA layihəsinə qoşulub.*



74 min avro dəyərində olan qrant layihənin tələblərinə uyğun olaraq 2 il ərzində universitet əməkdaşları Macarıstanın Debrecen, Türkiyənin Ankara Qazi, Avstriyanın Vyana Tətbiqi Elmlər, Finlandiyanın Jyvaskala, İspaniyanın Valensiya Politexnik universitetlərində təcrübə kurslarında olub, qazandıqları təcrübə əsasında universitetdə müəllim və tələbələr üçün seminar-treninqlər keçiblər. 2017-2019-cu illəri əhatə edən layihənin sonuncu mərhələsində Naxçıvan Dövlət Universitetində Təlim-Tədris Mərkəzi və Elektron laboratoriya istifadəyə verilib. Rektor, dosent Elbrus İsayev universitetə gələn qonaqlara ali təhsil ocağı haqqında ətraflı məlumat verib. Mərkəzin açılışında çıxış edən rektor qeyd edib ki, tədris və təlim prosesinin inkişaf etdirilməsi üçün potensialın gücləndirilməsi, tədqiqatların təşviq edilməsi və innovativ texnologiyaların tətbiqi layihənin məqsədləridir. Rektor mərkəzin fəaliyyətində perspektivləri dəyərləndirib, gələcək fəaliyyət istiqamətində mövcud təkliflərin də nəzərə alınacağını vurğulayıb.

İspaniyanın Valensiya Politexnik Universitetindən Javier Orozco mərkəzin fəaliyyətə başlamasından məmnunluğunu ifadə edib. O, Erasmus+ Key Action tərəfdaşlığı olan Petra, texnologiya və innovasiyalardan istifadənin artırılması, tədris və tədqiqata dəstək verilməsi və Avropa ölkələri ilə uzunmüddətli tərəfdaşlıq quraraq Azərbaycan universitetlərində tədris və təlimin təkmilləşdirilməsinə yönələn layihənin əhəmiyyətindən bəhs edib, mərkəzin fəaliyyətinə uğurlar arzulayıb.

Erasmus+ layihəsinin Azərbaycan nümayəndəliyinin direktoru Pərviz Bağırov bildirib ki, layihə çərçivəsində yaradılmış Təlim-Tədris Mərkəzi universitetin müəllimlərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, tədris prosesinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına xidmət edəcək.

Layihə iştirakçıları – Jurnalistika və kitabxanaçılıq kafedrasının müdiri, dosent Şəhla Şirəliyeva, İngilis dili və tərcümə kafedrasının müəllimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Aidə Cəlilzadə çıxışlarında qeyd ediblər ki, layihə təlim və tədrisdə mükəmməllik modelinin qurulmasına xidmət edəcəkdir. Diqqətə çatdırılıb ki, mərkəzin fəaliyyətinə 3 otaq ayrılıb və bu otaqlarda dəyəri 24 min 800 avro məbləğində olan avadanlıqlar quraşdırılıb.

Qeyd edək ki, yekunu Naxçıvan Dövlət Universitetində baş tutan layihədə İspaniyanın Valensiya Politexnik Universitetinin əməkdaşı Elena de la Poza da iştirak edib. Bu məqsədlə Azərbaycan ali məktəblərindən – Azərbaycan, Xəzər, Bakı Slavyan universitetlərində, eləcə də Azərbaycan Dillər, Pedaqoji, Gəncə, Sumqayıt Dövlət universitetlərinin də nümayəndə heyətləri Naxçıvan Dövlət Universitetində olublar. Qonaqlar ali təhsil ocağının fakültələrini gəzib, İKT, Media, Distant Təlim, Koreya mərkəzləri ilə tanış olublar. Universitetin maddi-texniki bazası, fakültələri, tədris imkanları qonaqlarda yüksək təəssürat formalaşdırıb. Onlar muxtar respublikanın turizm potensiallı yerlərində – Duzdağ Fizioterapiya Mərkəzində, Xan Sarayı, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Naxçıvan Biznes Mərkəzində, "Əshabi-Kəhf Ziyarətgahı" Dini-Mədəni Abidə Kompleksində də olublar.

Üç gün davam edən tədbirin sonunda layihə əməkdaşlarına universitetin sertifikatları təqdim olunub.

**Səadət ƏLİYEVA**

## Fərdi qəza sığortası – hər bir insanın sabahına zəmanət...

### *Bu zəmanət istəyə görə 30 min manat və daha yuxarı məbləğdə ola bilər*

*İnsan həyatı və sağlamlığı ən dəyərli nemətdir. Müasir cəmiyyətdə insan həyatının qorunması qədər baş verə bilən bədbəxt hadisələr nəticəsində dəyən maddi zərərlərin əvəzinin ödənilməsi də bu məqsədə xidmət edən mühüm dövlət siyasətidir. Bu baxımdan muxtar respublikamızda digər vacib sığorta növləri kimi, fərdi qəza sığortasının da kütləviləşməsi, bu istiqamətdə həyata keçirilən tədbirlər, son nəticədə, insanlara, onların gələcəyinin təminatına yönəlmiş dövlət qayğısıdır.*

Fərdi qəza sığortası müqaviləsinin bağlanılması hər bir şəxsin özünün və ailəsinin qarşısında mənəvi borcudur. Ona görə də bu hüquqdan istifadə olunması hər bir vətəndaş üçün vacibdir. Belə ki, yaşadığımız dövrdə baş verən təbii fəlakətlər, insanların fəal həyat tərzinə uyğun olaraq səyahətlərin və işgüzarlığın artması, müxtəlif texnika və nəqliyyat vasitələrindən daha tez-tez istifadə olunması ilə xarakterizə edilir. Bütün bunlar, eləcə də evdə, işdə, və yaxud yolda rast gəldiyimiz gözlənilməz qəfil qəza hadisələri zamanı insanların həyatına ciddi zərər dəyə bilər ki, bunun da nəticəsində zərərçəkmiş şəxsə həyatı boyu xeyli miqdarda əlavə maddi xərclər tələb olunar. Məhz bu səbəbdən Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən təklif olunan fərdi qəza sığortası vətəndaşlara etibarlı sığorta zəmanəti verir.

Təklif olunan fərdi qəza sığortası Azərbaycan Respublikası Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ-hüquqi aktlara uyğun şəkildə hazırlanmış qaydalara əsasən xeyli sayda gözlənilməz bədbəxt hadisələrə görə sığorta təminatı verir. İlk olaraq qeyd etmək lazımdır ki, fərdi qəza sığortası günün saatından və yaxud sığortalı vətəndaşın evdə, işdə ya da yolda olmasından asılı olmayaraq, ölkəmizin bütün ərazisində baş verə bilən sığorta hadisələri üçün maddi təminat verir. Belə sığorta hadisələrinə gəldikdə yol-nəqliyyat hadisələri, elektrik vurması nəticəsində insanların xəsarət alması və ya ölümü, sürüşüb yıxılma nəticəsində xəsarətalma və ya ölüm, otağa dolan qazsızma nəticəsində qəflətən baş verən ölüm hadisəsi, müxtəlif hadisələr nəticəsində, habelə iş yerində baş verən hər hansı qəzadan xəsarətalma, ölüm halı və digərlərini qeyd etmək olar.



Göründüyü kimi, fərdi qəza sığortası çox geniş sayda sığorta hadisələrindən vətəndaşlara maddi təminat vəd edir. Ancaq istisna hal kimi sərxoşluq, intihar və intihara təşəbbüs, bilərəkdən narkotik vasitələrin qəbulu, habelə sığortalı şəxsin cinayət törətməsi fərdi qəza sığortası təminatına daxil deyildir.

Təklif olunan fərdi qəza sığortasının şərtləri çox sadə olub, üstünlükləri isə kifayət qədərdir. Belə ki, qaydalara əsasən fərdi qəza sığortası üzrə tarif dərəcəsi risklərin səviyyəsindən asılı olaraq 0,5 faizdən 2 faizədək məbləğdə müəyyənləşdirilir. Məsələn, aşağı risk dərəcəsində 1000 manat dəyərində sığorta məbləği üçün 0,5 faiz tarif dərəcəsi ilə 5 manat sığortahaqqı ödəməklə müqavilə bağlamaq mümkündür. Bununla yanaşı, Dövlət Baş Sığorta Agentliyi fərdi qəza sığortası üzrə daha yüksək məbləğdə zəmanət verərək 100 manat ödəməklə 20 min manat, 150 manat ödəməklə 30 min manat və daha yüksək məbləğdə sığorta zəmanəti təklif edir. Göründüyü kimi, tərəflər arasında razılaşdırılmaqla həyata keçirilən fərdi qəza sığortası müqavilələri insanlara dəymiş maddi zərərlərdən xilas olunmaqda mühüm köməkdir. Digər bir əsas cəhət isə ondan ibarətdir ki, sığorta hadisəsi baş verdiyi zaman həmin müqavilədə göstərilən sığorta məbləğinin sığortaolunan, faydalanan şəxs bədbəxt hadisə nəticəsində vəfat etdiyi hallarda sığortaçı tərəfindən onun ailəsinə verilməsi nəzərdə tutulur. Bu isə son nəticədə, onun ailə üzvlərinin də gələcək sosial təminatına mühüm maddi dəstək deməkdir.

Fərdi qəza sığortası insan amilinə qayğı ilə yanaşmada əsas vasitədir. Bu qayğıdan hər bir şəxsin faydalanması üçün muxtar respublikamızda geniş imkanlar vardır. Buna görə də Dövlət Baş Sığorta Agentliyi vətəndaşları fərdi qəza sığortası müqavilələri bağlamaqda fəal olmağa, gələcək maddi təminatını zəmanət altına almağa çağırır. Çünki bu sığorta qəza baş verdiyi anda həmin insanlara mühüm bir maddi dayaqdır. Ona görə də gəlin bu gün hər birimiz sığortalanaq ki, sabah gec olmasın!

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin mətbuat xidməti***

Məmməd Məmmədov – 100

# Xatirələrdə yaşayan ömür

Bəstəkar Məmməd Məmmədov haqqında yazı hazırlayarkən onun ailəsi ilə də maraqlanmağı özümə mənəvi borc bildim. Öyrəndim ki, bəstəkarın üç övladı var. Onlardan hazırda Bakı şəhərində yaşayan ***Fəridə Məmmədova*** ilə əlaqə saxladım. O, Ali Məclis Sədrinin bəstəkar Məmməd Məmmədovun 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncamın atasının yaradıcılığına verilən yüksək qiymət olduğunu və bütövlükdə, mədəni irsimizə göstərilən bu qayğıya görə minnətdarlığını bildirdi. Atası ilə bağlı xatirələrini bölüşdü:





– Atam təkcə yaxşı musiqiçi, pedaqoq yox, həm də xoşxasiyyətli, mehriban, qayğıkeş və zəhmətkeş bir insan idi. Deyirlər, musiqiçilər incə ruhlu insanlardır. Şübhəsiz ki, atamın belə gözəl xarakterə malik olması öz sənətinə vurğunluğu ilə əlaqədardır. O, musiqi ilə yaşayır, onunla nəfəs alırdı. Sənətindən şövqlə danışar, çəkdiyi zəhmətdən zövq alardı. Atam gördüyü işlə heç vaxt kifayətlənmirdi. Daim musiqi aləmində axtarışda idi. Demək olar ki, onun boş vaxtı olmazdı. Vaxtının çox hissəsini piano arxasında məşqlə, ya da ki, musiqi bəstələməklə keçirərdi.

Bir müəllim kimi yetişdirdiyi tələbələr ilə həmişə fəxr edirdi. Öz tələbələri ilə həm də yaxın dost olmağı bacaran bir pedaqoq kimi onların fikirlərini də dinləyərdi. Teatr isə Məmməd müəllim üçün başqa bir aləm idi. Hansısa yeni bir dram əsərinin musiqi tərtibatı üzərində yorulmadan çalışardı.

Bu gün Naxçıvan şəhərindəki 1 nömrəli Uşaq Musiqi Məktəbinin atamın adını daşıması və 100 illik yubileyinin keçirilməsi ilə bağlı verilən sərəncam bizi musiqiçi ailəsi olaraq sevindirir və qürurlandırır. Bütün bunlara görə Ali Məclis Sədrinə minnətdarıq.

Bəstəkar Məmməd Məmmədovun yetirmələrinin və sənət yoldaşlarının da xatirələrini dinlədik.

***Nazim Kazımov – Azərbaycan Milli Konservatoriyasının nəzdində fəaliyyət göstərən Musiqi Kollecinin direktoru, Əməkdar incəsənət xadimi, professor:***



– Musiqi sahəsinə qədəm qoyduğum ilk illərdə üzvü olduğum, Məmməd müəllimin yaratdığı və rəhbərlik etdiyi "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının zəngin yaradıcılıq fəaliyyəti mənim kimi burada iştirak edən gənc musiqiçilərin gələcəkdə peşəkar sənətkar olmalarının əsas mərhələsi idi. Bu ansamblla biz Azərbaycanın müxtəlif bölgələrində, xarici ölkələrdə qastrol səfərlərində olmuşuq. Həmin konsertlər hələ kiçik yaşda olan musiqiçiləri artıq konsert ifaçısı kimi püxtələşdirirdi. Uğurlarımızın səbəbkarı isə gözəl insan, əsl pedaqoq, bəstəkar, dirijor Məmməd Məmmədov idi. Bu gün bizim yaxşı pedaqoq olmağımızda, təşkilatçı kimi formalaşmağımızda da Məmməd müəllimin pedaqoji ustalığının, təcrübəsinin böyük əhəmiyyəti olub.

Yaradıcılığımın ilk dövründə, boya-başa çatdığım doğma Naxçıvanda ilk müəllimlərimdən biri olan Məmməd Məmmədovu xatırladıqca, onun yüksək əxlaqi keyfiyyətlərini çoxsaylı yetirmələrinin timsalında gördükcə unudulmaz sənətkarla fəxr edir, onun şagirdi olduğum üçün qürur duyuram. Bu ustad sənətkarın anadan olmasının 100 illiyinin geniş şəkildə qeyd edilməsini isə bir sözlə ifadə etmək olar: qədirşünaslıq!

***Nazim Quliyev – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar:***

– Bəstəkar Məmməd Məmmədov mənim ilk müəllimlərimdən biri kimi yaddaşımda yaşayır. Məmməd müəllimin davranışı, yaradıcılığı mənim üçün böyük həyat məktəbi oldu. Müəllim kimi çox tələbkeş idi. Bunun da nəticəsində biz peşəkar musiqiçi kimi yetişdik. Onun musiqiyə olan vurğunluğu mənim kimi digər şagirdlərinə də sirayət etdi. Belə bir ustad sənətkarın şagirdi olub musiqini sevməmək mümkün deyildi. Bəstəkarın sənətə qarşı məhəbbətinin qığılcımları bu gün mənim kimi bir çox yetirmələrinin qəlbində yaşamaqdadır. Mən həmişə fəxr etmişəm ki, ondan dərs almışam. Məmməd müəllimin yaradıcılığı çoxşaxəli və genişdir.



O, 30-dan artıq tamaşaya musiqi bəstələyib. Əgər bir tamaşada, təxminən, 10 musiqi nömrəsinin olduğunu nəzərə alsaq, deməli, bəstəkar təkcə tamaşalar üçün 300-dən artıq mahnı, rəqs, uvertüra və başqa janrlarda musiqi nömrələri yazmışdır.

Bəstəkar Məmməd Məmmədovun 1938-ci ildə yaratdığı qızlardan ibarət nəfəsli alətlər orkestri təkcə Naxçıvanda yox, Cənubi Qafqaz ölkələri arasında ilk belə kollektiv idi. O, xüsusən ötən əsrin 60-cı illərində Naxçıvanda kütləvi musiqi ifaçılığının inkişafında müstəsna xidmətlər göstərib. Məmməd Məmmədovun zəngin yaradıcılığı öyrənilməli, əsərləri toplanıb daha geniş şəkildə təhlil edilməlidir. Çünki onun yaradıcılığı Naxçıvan musiqi mədəniyyətinin ən möhtəşəm səhifələrindəndir. Bu mənada, tanınmış bəstəkarın 100 illik yubileyinin muxtar respublikada dövlət səviyyəsində qeyd olunması, bütünlükdə, mədəniyyətimizin inkişafına töhfə, sənətə və sənətkara verilən qiymət kimi bizi çox sevindirir.

***İlqar Muradov – Azərbaycan Respublikasının Xalq artisti:***

– Naxçıvanda musiqiçilərin yetişməsində və püxtələşməsində danılmaz və unudulmaz xidmətləri olan, adını daim iftixarla xatırladığımız bəstəkar, dirijor, pedaqoq Məmməd Məmmədov mənim xor müəllimim olub. O, pedaqoji təcrübəsi və səriştəsi ilə bütün şagirdlərin sevimlisinə çevrilmişdi.



Məmməd müəllimin populyar mahnılarından biri olan, sözləri Müzəffər Nəsirliyə aid "Naxçıvan" mahnısı 1970-ci illərdə bütün musiqi məktəblərinin, eləcə də məşhur ifaçıların, xor kollektivlərinin repertuarında başlıca yer alırdı. Əminliklə söyləyə bilərəm ki, bu mahnı həmin dövrü xatırlayan hər bir naxçıvanlının dilinin əzbəridir.

Ömrünü xalqının, yaşadığı diyarın incəsənətinin inkişafına həsr edən Məmməd Məmmədov mənim xatirimdə öz peşəsinə, amalına sona qədər sadiq qalan və heç bir zaman təvazökarlığını itirməyən sənətkar kimi qalıb. Böyük həvəs və məhəbbətlə bağlı olduğu sənətinin müqabilində bu gün o, hamımızın qəlbində yaşayır və yaşayacaq.

***Zöhrab Axundov – Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti, ustad tarzən:***



– Mərhum bəstəkar Məmməd Məmmədov ilə tanışlığım uşaqlıq illərimə təsadüf edib. O, atam Vahid Axundovla həm iş yoldaşı, həm də dost idi. Məmməd Məmmədov zəngin pedaqoji təcrübəsi, yaratdığı gözəl musiqi nümunələri, əsl sənətkar şəxsiyyəti ilə musiqiçilərin ağsaqqalı kimi bu gün də hafizəmdə yaşayır.

Xüsusilə qeyd etmək istərdim ki, Naxçıvanda xor sənətinin ən yüksək, professional səviyyəyə çatmasında bəstəkarın mühüm xidmətləri var. Onun dövrün çətinliklərinə qatlaşaraq yaratdığı "Əlvan çiçəklər" mahnı və rəqs ansamblı, xor kollektivləri musiqi mədəniyyətimizin inkişafında silinməz izləri ilə yadda qalıb. Bəstəkarın pedaqoji ustalığının mühüm cəhətlərindən biri də kollektivlərin bir neçə ay ərzində hazırladıqları geniş, kütləvi tədbirlərin öhdəsindən qısa zamanda, yüksək səviyyədə gəlməsi idi. "Əlvan çiçəklər" mahnı və rəqs ansamblının, xor kollektivlərinin zəngin repertuarına daxil olan bütün musiqi nümunələrinin, demək olar ki, hamısını bəstəkar özü şəxsən hazırlamışdı. Bu da Məmməd müəllimin pedaqoji yaradıcılıq fəaliyyətinin ən yaddaqalan cəhətlərindəndir.

Məmməd Məmmədov Naxçıvan musiqi mədəniyyətinin inkişafında öz dəstxəti, layiqli imzası olan sənətkarlardandır.

***Nizami Məmmədov – Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi:***

– Məmməd Məmmədovun yaradıcılıq fəaliyyəti çoxşaxəli və genişdir. Bəstəkar Naxçıvan şəhər 3 nömrəli tam orta rus məktəbində nəfəsli alətlər orkestri yaratmışdı. Mən də həmin orkestrdə iştirak edirdim. Məmməd müəllimlə ilk tanışlığım da məhz o günlərdə olub. Bəstəkar o illərdə ucqar dağ kəndlərində belə, orkestrlər, xor kollektivləri yaradıb, gənc musiqiçilərin yetişməsində böyük xidmətlər göstərib. O, əsl pedaqoq, xüsusi idarəçiliyə malik bir musiqiçi idi. Bunun nəticəsidir ki, Naxçıvanda professional xor sənətinin təşkili və inkişafı bəstəkarın adı ilə bağlıdır. Belə ki, Məmməd Məmmədov konsert proqramları və bayramlar üçün xüsusi olaraq birləşmiş xor kollektivi yaradırdı. Düşünün ki, 1000-ə yaxın uşaqla eyni anda məşqlər aparmaq, onları truba alətində müşayiət etmək nə qədər çətin bir iş idi. Görkəmli bəstəkar, xormeyster Əfsər Cavanşirov Məmməd Məmmədovun yaratdığı birləşmiş xor kollektivinin ifasını dinləmiş və çox təsirləndiyini ifadə etmişdi.



Məmməd Məmmədov bu gün də biz musiqiçilər tərəfindən unudulmur, onun irsini təbliğ edərək yaratdığı əsərləri gənc musiqiçilərə öyrətməklə öz mənəvi borcumuzu ödəməyə çalışırıq.

*Hər kəsin dünyada bir dəfə yaşamaq şansı var. Kimisi ona bəxş edilən ömrü hədər edir, kimisi də həyatdakı missiyasını anlayaraq hədəfinə çatmaq, özünə mövqe qazanmaq üçün böyük şövqlə çalışır. Həmin insanların həyat və fəaliyyətinə nəzər salanda şahidi oluruq ki, onlar ömürlərini elinə, obasına, xalqına fayda vermək kimi ali məqsədə həsr ediblər. Bəli, göründüyü kimi, öz sənətinə vurğun insanlardan biri də bəstəkar Məmməd Məmmədov olub. Əminliklə demək olar ki, nə qədər ki gənc musiqiçilər yetişir, musiqi mədəniyyətimiz yaşadılır və ən əsası qədirbilən insanlar var, Məmməd Məmmədov da daim yaşayacaqdır.*

**Pərviz HACILI**

## "Badamlı-Naxçıvan Kuboku"na yekun vurulub

*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası, Azərbaycan Futzal Federasiyası və Naxçıvan Futbol Federasiyasının təşkilatçılığı və "Badamlı" Məhdud Məsuliyyətli Cəmiyyətinin sponsorluğu ilə Naxçıvan Futzal Liqasında mübarizə aparan komandalar arasında keçirilən "Badamlı-Naxçıvan Kuboku"na yekun vurulub.*



Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində təşkil olunan kubokun final qarşılaşmasında "Badamlı" və "Prestij" komandaları üz-üzə gəliblər. Görüş "Badamlı" komandasının 11:0 hesablı qələbəsi ilə başa çatıb.

Mükafatlandırma mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Naxçıvan Futbol Federasiyasının sədri Azad Cabbarov bu gün diyarımızda bütün idman növləri kimi, futbolun da inkişafına dövlət qayğısı göstərildiyini, bunun nəticəsində federasiyanın mütəmadi olaraq turnirlər, çempionatlar təşkil etdiyini, bunlardan birinin də "Badamlı-Naxçıvan Kuboku" olduğunu bildirib.

Nazir azarkeşlərin böyük həyəcanla izlədiyi final görüşündə göstərdikləri oyuna görə hər iki komandanı təbrik edib, bu kubokun bütün komandalar üçün də əlavə stimul olacağını və onların muxtar respublikamızı digər yarışlarda da layiqincə təmsil edəcəklərini vurğulayıb.

Azad Cabbarov kubokun rəsmi sponsoru olan "Badamlı" Məhdud Məsuliyyətli Cəmiyyətinə təşəkkür edərək bildirib ki, gələcəkdə Futbol Federasiyası ilə şirkət arasındakı əməkdaşlıq davam etdiriləcək.

Final görüşündən sonra mükafatlandırma mərasimi keçirilib. Həlledici qarşılaşmanı idarə etdiklərinə görə hakimlər Elmar Rzayev, Orucəli Orucov və Nicat Qurbanova xüsusi hazırlanmış plaketlər təqdim edilib. "Badamlı-Naxçıvan Kuboku" oyunlarında "Ən yaxşı oyunçu" nominasiyasında "Lokomotiv" komandasının üzvü Əfsun Ərəbov, "Ən yaxşı qapıçı" nominasiyasında "Badamlı" komandasının qapıçısı Hamid Raşidi qalib adını qazanıblar. Kubokun ən məhsuldar futbolçusu isə "Badamlı" komandasının üzvü Babək Allahverdixan olub. O, rəqib qapılarından 10 top keçirib.

Sonra finalçı "Prestij" komandasına medal, qalib "Badamlı" komandasına isə medal və kubok təqdim edilib.

Sonda xatirə şəkli çəkdirilib.

## Daxili İşlər Nazirliyi əməkdaşlarından 6 medal



Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman cəmiyyətində daxili işlər orqanlarının komandaları arasında çoxnövçülük üzrə ölkə birinciliyi keçirilib. Birincilikdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası da iştirak edib.

Nazirliyin İdman cəmiyyətinin rəisi, polis kapitanı Elməddin Abdullayevin rəhbərliyi ilə 6 idmançıdan ibarət komandamız muxtar respublikaya uğurlu nəticə ilə qayıdıb. Belə ki, komandamız, ümumilikdə, 6 medal qazanıb. Bunların üçü qızıl, ikisi gümüş, biri isə bürünc olub.

Rəşad Həsənov, Nicat Səfərov və Sərxan Zeynalov bütün rəqiblərini məğlub edərək turnirin baş mükafatına, Elnur Yaqubov və Elgün Əsgərov birinciliyin gümüş medalına layiq görülüblər. Rəzzax Əliyevin qazandığı medalın əyarı isə bürünc olub. Bu nəticədən sonra qazandığı medalların sayına görə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin komandası birinciliyi qalib kimi başa vurub.

Yarışın sonunda qalib komandamıza Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin diplom, medal və kuboku təqdim olunub.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonunun Çomaxtur kəndində yaşamış Tahirov Mübariz Ələşirəf oğlunun adına verilmiş JN-603 inventar nömrəli, 10200018 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur şəhər sakini Həsənov Tofiq Ələşrəf oğlunun adına verilmiş Şərur şəhəri, M.Müşfiq küçəsi döngə 1-də yerləşən fərdi yaşayış evinə aid 28.11.2013 qeydiyyat tarixli, MH-0033554 seriya nömrəli çıxarış və 102013000206-10301 reyestr nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 223